*Azərbaycan bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Bu bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 noyabr 2019-cu il № 87 (2404) Qiyməti 30 qəpik


## 9 Noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdür

Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır



*Dövlətçilik rəmzi olan bayraq milli heysiyyət simvolu, müqəddəsliyin, müstəqilliyin nəfəsi, istiqlaliyyətin səsidir. Müqəddəs bayrağım, uğrunda minlərlə şəhid verən Vətənimin qürur mənbəyi, sən dalğalandıqca qəlbimi fəxarət hissləri bürüyür. Bu bir həqiqətdir ki, türk övladı Vətənini sevir, millətini sevir, bayrağını sevir...*

Azərbaycan Respublikasının Dövlət bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edildi və qaldırıldı. Rus imperiyası 23 aydan sonra Azərbaycan Xalq Cümhuriyyətini süquta uğratdı. Dövlət ilhaq edilsə də, dövlətçilik ideyaları, mübarizə əzmi yaşadıldı. Xalqımız üçrəngli bayrağımızın yenidən yüksələcəyinə böyük ümid bəslədi.

Ürəklərdə yaşayan üçrəngli bayrağımız 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edildi. Sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağımızın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı.

5 fevral 1991-ci ildə bayraq Azərbaycan Respublikasının Ali Soveti tərəfindən dövlət rəmzi kimi təsdiq edildi.

Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra bayrağımız ümumxalq referendumu ilə qəbul edilən Konstitusiyada da öz əksini tapdı.

Dövlət başçıları səmavi kitabla birgə bayrağa da and içir, xalqa, Vətənə sadiq qalacağına söz verir. Bu, bayrağın müqəddəsliyinin təsdiqidir. Bütün dövlət himnlərində ölkənin bayrağının adı çəkilir.

Vətənin müqəddəsliyinin qorunmasını şərəf hesab edən ulu öndər Heydər Əliyev dövlət bayrağını milli azadlığa, milli oyanışa, milli ruhun canlanmasına bələdçi, çağırış bilir.

Dövlət atributlarını bərpa edən ulu öndər Heydər Əliyev deyirdi: "Azərbaycan bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Bu bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin...".

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin milli ideyalara bağlılığı həm də bayrağımıza münasibətdə açıq-aydın görünür. "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə"yə edilmiş əlavə və dəyişikliklərin təsdiqlənməsi, "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Qanunun imzalanması da dövlətçiliyə sədaqətin, yüksək ehtiramın ifadəsidir.

Prezident İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncamla Azərbaycanın üçrəngli bayrağının ilk dəfə qəbul edildiyi 9 noyabr (1918-ci il) tarixi Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi təsis edildi. 2010-cu ildən etibarən noyabrın 9-u respublikamızda Dövlət Bayrağı Günü qeyd olunur. 2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılışı oldu. Dövlətimizin başçısı həmin mərasimdəki tarixi nitqində deyib: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına! Yaşasın, Azərbaycan!". Bu kəlamlar Ulu Öndərin ideyalarına sadiqlik ifadəsidir. Bu gün Dövlət bayrağımız müstəqilliyimizin rəmzi kimi BMT-nin, Avropa Şurasının, ölkəmizi başqa dövlətlərdə təmsil edən səfirliklərimizin qarşısında əzəməti ilə ucalır.

Gün gələcək müstəqilliyimizin, suverenliyimizin ifadəsi olan bayrağımız işğaldan azad edəcəyimiz ərazilərdə də əzəmətlə dalğalanacaq.

**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri Litvanın Azərbaycanda yeni təyin olunmuş səfiri ilə görüşüb



*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Litva Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Eqidius Navikas ilə görüşüb.*

Müdafiə naziri səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib və ona Azərbaycan ilə Litva arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səylərinə baxmayaraq sülh danışıqlarının rəsmi Yerevan tərəfindən qəsdən yubadıldığını vurğulayıb.

Görüşdə iki ölkə arasında hərbi əməkdaşlığa dair fikir mübadiləsi aparılıb, ölkələrimiz arasında hərbi təhsil sahəsində əldə olunan razılaşmaların inkişaf etdirilməsinin, o cümlədən hərbi qulluqçular üçün təşkil olunan kurslarının davamının və onların dinləyicilərinin sayının artırılmasının zəruriliyi də xüsusi qeyd edilib.

Ölkəmizdə diplomatik fəaliyyətə başlamasından məmnunluğunu ifadə edən səfir Azərbaycan-Litva əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib.

E.Navikas öz növbəsində Litvanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və ona hörmətlə yanaşdığını qeyd edib, ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu, bunun Cənubi Qafqaz regionunun inkişafı və təhlükəsizliyinin təmin edilməsi baxımından vacibliyini bildirib.

Tərəflər regional və ikitərəfli əməkdaşlıq, həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələləri müzakirə ediblər.

# Müdafiə naziri Xorvatiyanın ölkəmizdə yeni təyin olunmuş səfiri ilə görüşüb



Noyabrın 6-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Xorvatiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Branko Zebiç ilə görüşüb.

Müdafiə naziri səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib və ona bir çox istiqamətlərdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığın genişləndirilməsində uğurlar arzulayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ölkələrimiz arasında mühüm strateji əməkdaşlığın, dost və mehriban münasibətlərin mövcudluğunu qeyd edən diplomat Xorvatiyanın Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü daim dəstəklədiyini vurğulayıb.

Görüşdə Azərbaycan ilə Xorvatiya arasında hərbi, hərbi təhsil və hərbi-texniki sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi, regiondakı hərbi-siyasi vəziyyət müzakirə edilib.

# Türkiyə, Azərbaycan və Gürcüstan hərbi sahədə çox uğurla əməkdaşlıq edirlər

*Türkiyə, Azərbaycan və Gürcüstan hərbi sahədə çox sıx və səmərəli əməkdaşlıq edirlər. Bu da hər üç dövlətin həm bölgədə, həm də dünyada sülhün, sabitliyin və təhlükəsizliyin qorunmasında maraqlı olduğunu sübut edir.*

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin Milli Müdafiə nazirinin müavini Yunus Əmrə Karaosmanoğlu Batumidə keçirilən beynəlxalq müdafiə və təhlükəsizlik konfransındakı çıxışı zamanı söyləyib.

Nazir müavini deyib ki, Türkiyə, Azərbaycan və Gürcüstanın birgə keçirdikləri hərbi təlimlər yüksəkixtisaslı, peşəkar kadrların hazırlanmasında, hər üç ölkənin müdafiə qüdrətinin artmasında mühüm rol oynayır.

Nazir bu üçtərəfli əməkdaşlığın regionda həyata keçirilən irimiqyaslı enerji və nəqliyyat layihələrinin müdafiəsində də əsaslı rol oynadığını bildirib.

Karaosmanoğlu çıxışı zamanı Türkiyənin həyata keçirdiyi hərbi əməliyyatlar və beynəlxalq əməkdaşlığı barədə də ətraflı məlumat verib.

# Dövlət Bayrağı Günü münasibətilə yürüş keçirilib



Noyabrın 7-də Müdafiə və Təhsil nazirlikləri Ağdam rayonunun Quzanlı qəsəbəsində 9 Noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibəti ilə "Bayraq yürüşü" keçirib.

Yürüşün keçirilməsində əsas məqsəd milli atributlarımızın təbliği, gənclərə vətənpərvərlik hissi və milli-mənəvi dəyərlərin aşılanmasıdır.

Yürüşdə Müdafiə Nazirliyinin hərbi qulluqçuları, Təhsil nazirinin müavini Firudin Qurbanov, Ağdam rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Milli Məclisin deputatları, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvləri, media qurumlarının rəhbərləri, hərbçilər, tanınmış ziyalılar, müəllim və şagirdlər, KİV nümayəndələri iştirak ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Ermənistanın işğalçı siyasətinin ifşası (məqalələr toplusu)" kitabının təqdimatı keçirilib

Noyabrın 7-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) tərəfindən Azərbaycan və ingilis dillərində nəşr olunan "Ermənistanın işğalçı siyasətinin ifşası (məqalələr toplusu)" kitabının təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, kitab Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə AVCİYA-nın həyata keçirdiyi "Ermənistanın işğalçı siyasətinin ifşası: tarixi fakt və arayışların beynəlxalq ictimaiyyətə çatdırılması yönündə fəaliyyətlərə dəstək" layihəsi çərçivəsində çap edilib.

Layihənin əsas məqsədi Ermənistan-Azərbaycan münaqişəsinin dərin tarixi köklərini, Ermənistanın ölkəmizə qarşı yürütdüyü işğalçılıq siyasətini və Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasından ibarətdir.

Tədbirdə ADPU-nun baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Dəyanət Musayev kitab haqqında məlumat verib. Bildirib ki, qonşu Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının tarixi var. Bu tarix qədim dövrlərə gedib çıxır. Qeyd edib ki, nəşrdə yer almış məqalələrdə tarixi ardıcıllıq gözlənilməklə müasir dövrə qədər görkəmli tədqiqatçılarımızın yazıları yer alıb. D.Musayev bu kitabın yerli və xarici universitetlərə paylanılacağını vurğulayıb.

Kitabın rəyçisi, professor Oqtay Sultanov bildirib ki, ermənilər zaman-zaman türk dünyasına qarşı ekstremist siyasət aparıb. O.Sultanov ermənilərin Qafqazda gəlmə bir xalq olduğunu və bunu bütün dünya ictimaiyyətinə çatdırmağın vacibliyini söyləyib.

Tədbirdə çıxış edən digər natiqlər kitab haqqında öz müsbət fikirlərini söyləyib və belə nəşrlərin müxtəlif dillərdə çap olunmasının vacibliyini bildiriblər.

# Azərbaycanın Müdafiə naziri Fransanın yeni səfiri ilə hərbi-texniki əməkdaşlıq məsələlərini müzakirə edib

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Zakari Qros ilə görüşüb.*



Müdafiə naziri səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib və ona Azərbaycan ilə Fransa arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan ilə Fransa arasında hərbi əlaqələrin genişləndirilməsi məsələlərinin müzakirə olunduğu görüşdə regiondakı hərbi-siyasi vəziyyət, beynəlxalq və regional təhlükəsizlik problemləri, eləcə də əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Qoşunların təmas xəttindəki hazırkı vəziyyət barədə diplomata məlumat verən Müdafiə naziri vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe regional təhlükəsizliyə ciddi təhdiddir. Nazir xüsusi qeyd edib ki, məsələnin həlli yolu beynəlxalq hüququn norma və prinsipləri əsasında Ermənistanın BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərini yerinə yetirməyə məcbur edilməsidir.

Fransanın bəzi şəhərləri ilə Azərbaycanın işğal olunmuş ərazilərindəki qondarma rejim tərəfindən yaradılan "yerli hakimiyyət orqanları" arasında imzalanan bir neçə qanunsuz "müqavilə"nin Fransanın müvafiq məhkəmələrinin qərarları ilə ləğv olunmasını yüksək dəyərləndirən Müdafiə naziri Fransanın ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi olaraq Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında səylərinin daha da artıracağına ümidvar olduğunu bildirib.

Müdafiə sahəsində ikitərəfli münasibətlərin əhəmiyyətini qeyd edən general-polkovnik Zakir Həsənov Azərbaycan ilə Fransa arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın mövcud vəziyyətini yüksək qiymətləndirib.

Öz növbəsində ölkələrimiz arasında əməkdaşlığın və dost münasibətlərin olduğunu qeyd edən diplomat Fransanın Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb.

Səfir Z.Qros Fransanın Azərbaycan ilə müdafiə sahəsində, xüsusilə hərbi-texniki, hərbi təhsil, hərbi tibb sahələrində birgə layihələrin həyata keçirildiyini və bu proqramların inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Görüşdə tərəflər Fransanın müdafiə məhsulları istehsal edən bir sıra şirkətləri tərəfindən Azərbaycanda həyata keçirilən müxtəlif layihələrin hazırkı vəziyyətini, eləcə də müdafiə və təhlükəsizlik sahələrində qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***8 noyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əsrik Cırdaxan, Ağbulaq kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Türkiyənin yüksək səviyyəli hərbi nümayəndə heyəti Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbdə olub

*Azərbaycan-Türkiyə 12-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Baş Qərargahının ikinci rəisi korgeneral Metin Gürakın başçılıq etdiyi nümayəndə heyəti Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini ziyarət edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, öncə qonaqlar məktəbin ərazisində ucaldılan xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.

Ziyarət zamanı ali hərbi məktəbin komandanlığı ilə görüş keçirilib.

Sonra qonaqlara hərbi məktəbin tarixinə, təlim-tədris prosesinə və ümumi fəaliyyətinə dair ətraflı brifinq təqdim edilib.

Nümayəndə heyəti hərbi təhsil ocağının kafedralarında olan tədris vəsaitləri, madditexniki və hərbi təyinatlı digər vasitələrlə yaxından tanış olub. Qonaqlara ixtisas fakültələrinin döyüş texnikası, təlim trenajorları, atıcı silahlar və digər hərbi avadanlıqlar barədə ətraflı məlumat verilib.



## Azərbaycan-Türkiyə 12-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclası başa çatıb

*Bakıda Azərbaycan-Türkiyə 12-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclası öz işini başa vurub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iclasda Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın vəziyyəti, inkişaf perspektivləri müzakirə edilib, eləcə də qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün əsas istiqamətlər müəyyənləşdirilib və 2020-ci il üçün fəaliyyət planı razılaşdırılıb.

Görüşün sonunda iclasın yekunlarına dair Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında protokol imzalanıb.

Bu formatda növbəti görüşün gələn il Türkiyədə keçirilməsi planlaşdırılır.

## Tanınmış fransız tarixçi Ermənistanı faşizm ideyalarını yaşatmaqda ittiham edir

Türkiyədə fəaliyyət göstərən Avrasiya Araşdırmalar Mərkəzinin (AVİM) saytında "Njdeizm Ermənistanda hələ də rəsmi olaraq yaşadılmaqdadır" sərlövhəli elmi məqalə yayılıb.

AZƏRTAC xəbər verir ki, tanınmış fransız tarixçi Maksim Qauinin müəllifi olduğu məqalədə belə bir fikir yer alıb: 2019-cu ilin oktyabr ayında Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın Njde kimi faşistləri dəstəkləyənlərə sayğı göstərdiyi üçün Nikol Paşinyanı ittiham edəndə, o, müqavimət göstərməyə çalışdısa da, özünü təkzib etdi.

Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət edən terrorçu Qaregin Ter-Arutyunyanın cinayət dolu həyat və fəaliyyəti barədə türkdilli oxuculara məlumat verən müəllif adıçəkilən cinayətkarın əməllərini təhlil edərək əsaslandırır ki, Njde təkcə faşistlərlə əməkdaşlıq edənlərdən deyil, həm də alman əsilli olmayanlar üçün faşist doktrinasının hazırlanmasında ən çox səy göstərənlərdən biri olub. Tədqiqatçı təəssüflə qeyd edir ki, faşistlərlə əməkdaşlıq edən tanınmış şəxslər arasında təkcə Njde dövlət qurumları (Ermənistan) tərəfindən "milli qəhrəman" kimi təqdim olunur.

# “Bayrağa, Vətənə, anda sədaqət”

## Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində vətənpərvərlik tədbiri keçirilib

*9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Bayrağa, Vətənə, anda sədaqət" adlı vətənpərvərlik tədbiri keçirilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət bayrağı hərbi orkestrin müşayiəti ilə salona gətirilib. Xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, layihənin müəllifi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani xalqımızın azadlıq və istiqlal ideyalarının, milli varlığının, ərazilərimizin bölünməzliyinin, dövlətçiliyimizin və müstəqilliyimizin rəmzi olan Dövlət bayrağı haqqında ətraflı məlumat verib, Azərbaycanın tarixi bayraqları tədbir iştirakçılarına təqdim olunub. Bildirilib ki, ulu əcdadlarımız zaman-zaman bayrağa yer və göyü birləşdirən müqəddəs bir varlıq kimi baxmış, onu ən təmiz, pak, uca tutulan yerlərdə saxlamış, bayraqlar sancılan zirvələri, çadırları, iqamətgahları və qərargahları müqəddəs məkan bilmiş, həmişə bayrağa ehtiram göstərmiş, qarşısında səcdə etmiş, and içmiş, bayraq gətirilən mərasimlərdə onu ayaqda qarşılamışlar. Bu ənənə nəsildən-nəslə ötürülərək bu gün də yaşamaqdadır.



Azərbaycan əsgərinin digər dövlət rəmzləri kimi bayrağımıza da həmişə sədaqət nümayiş etdirdiyi, bu bayraq altında Ali Baş Komandanın əmrlərinə hər an hazır olduğu vurğulanıb.

Ulu öndər Heydər Əliyevin "Azərbaycanın Dövlət bayrağı bütün beynəlxalq təşkilatların iqamətgahları qarşısında dalğalanır. Azərbaycanın dövlət bayrağı müstəqil Azərbaycanın başının üstündə dalğalanır. Bu yüksəklərə qalxmış bayraq bundan sonra heç vaxt enməyəcək!" və dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət bayrağı dalğalanır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada da dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq" fikirləri səsləndirilib.

Azərbaycan idmançılarının, eləcə də ordu idmançılarının olimpiadalarda, dünyanın bir çox mötəbər idman yarışlarında qalib olaraq Azərbaycanın Dövlət himnini səsləndirməsi, bayrağımızı qaldırması barədə fəxrlə söhbət açılıb.

Ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov Vətən darda olanda Azərbaycan xalqının bir nəfər kimi ayağa qalxdığını, hamının bir amal, bir məqsəd uğrunda birləşdiyini və əsgəri şərəf, şücaət, şöhrət rəmzi olan döyüş bayraqları altında savaş meydanlarına atıldığını qeyd edib. "Bayraq mənliyimizdir, varlığımızdır, kimliyimizdir, dövlətimizin müqəddəs rəmzlərindəndir və tapındığımız, inandığımız müqəddəs milli dəyərimizdir. Ürəyində bayraq sevgisi, Vətən sevgisi, dövlətə, xalqa sədaqət hissi olmayan şəxs heç vaxt vətənpərvər ola bilməz. Hər bir Azərbaycan vətəndaşı bayrağımızın ən uca zirvələrdə dalğalanmasına öz töhfəsini verməli, Azərbaycan naminə bu bayraq altında hər an mübarizəyə hazır olmalıdır", - general-leytenant Yaşar Aydəmirov deyib.

Aprel döyüşlərinin iştirakçısı general-mayor Bəkir Orucov çıxış edərək Azərbaycan Respublikasının Silahlı Qüvvələrində ilk olaraq Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrə döyüş bayraqlarının təqdim olunmasını nəzərə çatdırıb.

General-mayor B.Orucov bildirib ki, 12 may 2004-cü ildə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 80-ci ildönümünə həsr olunmuş yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana gələn Ali Baş Komandanımız qarnizonun şəxsi heyəti ilə də görüşüb və hərbi hissələrə təntənəli şəkildə döyüş bayraqlarını təqdim edib. Həmin döyüş bayraqlarını qəbul edən hərbi hissə komandirlərindən biri də indi general-mayor olan B.Orucov olmuşdur. O, bu gün də həmin tarixi hadisəni fəxarət hissi ilə xatırlayıb.



Lələtəpə uğrunda döyüşləri yada salan general-mayor B.Orucov həmin gün Vətən müdafiəçilərinin sanki oda, atəşə dönərək döyüşə-döyüşə zirvəyə doğru necə can atdıqlarını, güllələr, mərmi atəşləri altında bayrağımızı azad edilmiş zirvəyə necə sancdıqları anın sevincini tədbir iştirakçıları ilə bölüşüb və bu bayrağın tezliklə işğal altında olan digər torpaqlarımızda da dalğalanacağına əminliyini bildirib.



Dövlət bayrağı gününə həsr olunmuş tədbirdə hərbi qulluqçular bu bayrağın daim Azərbaycanın başı üzərində əzəmətlə dalğalanması naminə dövlətimizin başçısının apardığı məqsədyönlü daxili və xarici siyasəti ürəkdən bəyəndiklərini və dəstəklədiklərini bəyan ediblər.

Rusiyanın Soçi şəhərində keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunda və Aşqabadda keçirilən Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında Prezident İlham Əliyevin hücum diplomatiyasına keçərək, dünyanın gözü qarşısında Ermənistanın siyasi-hərbi rəhbərliyinə, küçədən hakimiyyətə gəlmiş Nikol Paşinyanın sərsəm bəyanatlarına kəskin cavab verməsi və onu yerində oturtması Azərbaycan Ordusunun şəxsi heyətində də böyük ruh yüksəkliyi yaratdığı qeyd olunub.

Ali Baş Komandanın Rusiyanın məşhur "Kommersant" qəzetinə müsahibəsi zamanı dediyi "XXI əsr türk dünyası əsri olacaq!" kəlamı alqışlarla qarşılanıb. Bir millət, iki dövlətin bayraqları yanaşı salona gətirilib. Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi parad xatırlanıb. Azərbaycan və Türkiyə qardaşlığına, dostluğuna həsr olunmuş mahnılar ifa edilib.

Əməkdar mədəniyyət işçisi Solmaz Kosayevanın şəhid analarının dilindən etdiyi "Şəhidlər önündə əyilən bayraq tezliklə Şuşaya sancılmalıdır!" çağırışı tamaşaçılarda duyğulu anlar yaşatsa da, onlarda böyük qələbəyə inam hissini daha da artırıb.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyətinin, eləcə də tanınmış incəsənət ustalarının iştirakı ilə bayrağa həsr olunmuş ədəbi, xoreoqrafik kompozisiyalar təqdim olunub, Azərbaycan bayrağını tərənnüm edən yeni mahnılar ifa edilib.

Tədbirdə Abdulla Qurbaninin sözlərinə bəstəkar Azad Zahidin yazdığı "Uçuşa hazırıq" mahnısının təqdimatı olub. Azərbaycanın hərbi pilotlarına həsr olunmuş mahnı Elnur Məmmədovun ifasında maraqla qarşılanıb.

Vətənpərvərlik tədbirində qoşun növlərinin, Bakı Qarnizonundakı hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrinin nümayəndələri bir daha Bayrağa, Vətənə, dövlətə, xalqa sonsuz sədaqətlərini ifadə ediblər.

# Hərbi tibb mütəxəssislərinin işçi görüşü keçirildi



*Maddi-Texniki Təminat Baş İdarəsinin konfrans zalında Azərbaycan-Gürcüstan-Türkiyə respublikalarının "Hərbi tibb sahəsində əməkdaşlıq" mövzusunda üçtərəfli görüşü keçirildi.*

Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev, Türkiyə və Gürcüstan respublikalarının Silahlı Qüvvələrinin tibb xidməti üzrə mütəxəssisləri ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdilər.

Tədbir iştirakçılarını salamlayan general-mayor Natiq Əliyev bildirdi ki, Azərbaycan-Gürcüstan-Türkiyə respublikaları arasında yaxın münasibət ordularımızı da əhatə edir. Tibb Baş İdarəsinin rəisi üç dövlət arasında keçirilən təlimlərin (Qafqaz Qartalı, Eternity və s.) Silahlı Qüvvələrimizin hərbi qulluqçularının qarşılıqlı təcrübə mübadiləsinə müsbət təsir etdiyini vurğuladı.

Tədbirdə Türkiyə tərəfindən iştirak edən polkovnik Yusuf Gündoğdu dəvətə görə minnətdarlığını bildirərək qeyd etdi ki, Türkiyə təşkil olunan görüşlərin davamlı olmasında maraqlıdır.

Gürcüstan təmsilçisi polkovnik Avtandil Abaşidze vurğuladı ki, uzun illərdir regionda davam etdirilən dostluq münasibətləri ordularımızın qarşılıqlı əməkdaşlığına da öz töhfəsini verir.

Daha sonra görüşdə gündəliyə əlavə olunmuş müzakirə mövzuları qonaqlara çatdırıldı:

- Azərbaycan-Gürcüstan-Türkiyə respublikalarının hərbi qulluqçularının müalicə aldığı müalicə müəssisələrinin tibbi yardımın təşkili ilə tanışlıq məqsədilə səfərlərin təşkili və tibbi imkanların inkişafı üçün əməkdaşlıq;
- Kütləvi zədələnmələr zamanı xəstələrin (yaralıların) çeşidlənməsi və təxliyəsi üzrə vəziyyətin idarə olunması;
- Hərbi tibbi mövzularda təşkil olunacaq konfrans və seminarlara dəvətlərin təşkili;
- Orduda qida və su təhlükəsizliyi məsələləri;
- Kütləvi qırğın silahlarının tətbiqi və ya təbii fəlakətlər zamanı hərbi tibb xidmətlərinin qarşılıqlı fəaliyyət imkanları və təcrübə mübadiləsinin paylaşılması;
- Silahlı Qüvvələrdə kütləvi istifadə olunan müdafiə təyinatlı tibbi ləvazimatların birgə istehsalı imkanlarının araşdırılması üzrə ekspert görüşlərinin təşkili.



Görüşün sonrakı hissəsində Azərbaycan Ordusunun tibbi təminatın strukturlarına dair prezentasiyalar təqdim olundu, mövzu ilə bağlı brifinqlər görüş iştirakçılarının diqqətinə çatdırıldı, hərbi-tibbi əməkdaşlıq sahəsində mövcud olan qabaqcıl təcrübələrin öyrənilməsi məsələləri müzakirə edildi.

Sonda qonaqlara qiymətli hədiyyələr təqdim olundu, xatirə şəkilləri çəkildi.

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

# "Fəxrimiz, vüqarımız - bayrağımız"

*Bayraq millətin şərəfi, istiqlal mücəssəməsi, mövcudluğunun, azadlığının ən bariz göstəricisidir. Tarixə nəzər salarkən görürük ki, bayraq hər bir xalq üçün müqəddəs olub. Bayraq ən ülvi dəyərləri özündə əks etdirən mühüm dövlət atributudur. Ölkəmizdə 9 Noyabr Dövlət Bayrağı Gününün qeyd olunması həm dövlətimiz, həm də xalqımız üçün olduqca əlamətdar bir hadisədir.*

Azərbaycan Hərb Tarixi Muzeyində müstəqilliyimizi özündə təcəssüm etdirən dövlətçilik rəmzimiz - Azərbaycan Respublikasının Dövlət Bayrağının qəbul edilməsinin 101 illiyinə həsr olunan "Fəxrimiz, vüqarımız - bayrağımız" adlı tədbir keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin, hərbi hissələrin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Öncə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə açaraq "Dövlət bayrağı hər birimizin şərəf və qürur mənbəyidir" adlı məruzə ilə çıxış etdi. Bildirdi ki, hər bir xalqın özünəməxsusluğunu şərtləndirən amillər onun dövlətçilik ənənələri ilə yanaşı, həm də zəngin milli-mənəvi irsi əsasında müəyyənləşir. "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında ilk hökumət qərarı 1918-ci il iyunun 24-də verilmişdir. Noyabrın 9-da Nazirlər Şurası tərəfindən Azərbaycan bayrağının göy, qırmızı və yaşıl rənglərdən, aypara və səkkizguşəli ulduzlu təsvirdən ibarət olması barədə qərar qəbul olunur. Üçrəngli bayrağımız ilk dəfə həmin gün Bakıda Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qaldırılmışdı...

Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı və 1920-ci ildə bolşevik inqilabı nəticəsində süqut etdi.

Azərbaycan xalqı illərlə doğma və əziz bayrağından təcrid olundu. Lakin bu illər ərzində xalqın öz istiqlaliyyətinə sevgi və məhəbbəti tükənmədi. Əksinə, millətimiz bu bayrağın nə vaxtsa yenə də Vətənimizin, doğma Azərbaycanımızın üzərində əzəmətlə dalğalanacağı anı səbirsizliklə gözlədi.

Həmin bayraq yenidən 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edildi...

Prezident, Ali Baş Komandan İlham Əliyevin milli ideallara bağlılığı həm də üçrəngli bayrağımıza münasibətdə açıq-aydın görünür... Ali Baş Komandanın 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncama əsasən, hər il noyabrın 9-u respublikamızda Dövlət Bayrağı Günü kimi qeyd olunur. Qürur və iftixar mənbəyimiz olan üçrəngli bayrağımız indi ölkəmizin hər yerində şərəflə dalğalanır."

Dövlət Bayrağı Günü haqqında geniş məlumat verən muzey rəisi çıxışını Ali Baş Komandan İlham Əliyevin "Bayrağımız eşidilən səsimiz, duyulan nəfəsimizdir. Bayrağımız bizim qürur mənbəyimizdir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Dövlət Bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir" - sözləri ilə bitirdi.



Tədbirdə Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla teatrının nəzdində fəaliyyət göstərən "Oyuq" teatr studiyasının nümayəndələri vətənpərvərlik musiqiləriylə çıxış etdilər.

Sonda bayrağımızın tarixindən bəhs edən "Birinci bayraq" adlı sənədli film nümayiş olundu.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan Rusiyaya etiraz notası verib

*Noyabrın 6-da Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov Xarici İşlər Nazirliyinə çağırılıb və onunla Xarici İşlər nazirinin müavini Xələf Xələfov görüş keçirib.*

Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Rusiya səfirinə Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ bölgəsində yaradılmış qanunsuz rejimin "təmsilçiləri" Masis Mayilyan və Lernik Hovhannisyanın Rusiya Federasiyasına səfəri ilə əlaqədar XİN-in etiraz notası təqdim edilib.

Notada Azərbaycanın işğal olunmuş ərazilərindəki qondarma qurumun "nümayəndələri"nin Rusiya ərazisinə daxil olması, orada bir sıra rusiyalı ekspertlər və akademik mərkəzlərin təmsilçiləri ilə görüşlərin keçirilməsi Ermənistanın artıq 30 ilə yaxındır ki, işğal edilmiş ərazilərdə status-kvonu möhkəmləndirməyə çalışaraq, Azərbaycan ərazilərini işğal altında saxlamağa xidmət etdiyi qeyd olunub.

Nazirlik bu kimi səfərlərin dəyişməz olaraq təxribat xarakteri daşıdığını, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəldiyini vurğulayaraq, danışıqlar prosesinə zərbə vurduğu, ölkəmizlə Rusiya arasındakı səmimiyyətə və yüksək etimada kölgə saldığı, habelə 1997-ci il 3 iyul tarixli "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə"nin müddəaları ilə qəti şəkildə uzlaşmadığı ilə bağlı mövqeyini Rusiya tərəfinə çatdırıb.

Bildirilib ki, Rusiya tərəfinin bu cür səfərlərə şəxsi səfər kimi baxdığını dəfələrlə bəyan etməsinə baxmayaraq, işğal olunmuş ərazilərdəki qeyri-qanuni "hakimiyyət orqanları"nın "nümayəndələri" Rusiya ərazisindən Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin möhkəmləndirilməsi məqsədilə istifadə etməkdə davam edirlər.

Eyni zamanda, qondarma qurumun "nümayəndələri"nin Rusiya ərazisinə səfər etməsi və orada işğalın nəticələrinin təbliğinə imkan yaradılması Rusiyanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk Qrupunun həmsədri mandatında vasitəçi kimi öhdəlikləri, eləcə də BMT Təhlükəsizlik Şurasının daimi üzvü qismində hələ 1993-cü ildə dəstəklədiyi 822, 853, 874 və 884 saylı qətnamələri ilə uzlaşmadığı bildirilib. Xüsusi vurğulanıb ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin missiyası münaqişənin sülh yolu ilə həllinə dair bütün məsələlərdə qərəzsiz münasibət bəsləməkdir.

Azərbaycan tərəfi bu kimi qanunsuz səfərlərin qarşısının alınması istiqamətində Rusiya tərəfindən bütün zəruri tədbirlərin görüləcəyini gözlədiyini səfir M.Boşarnikovun diqqətinə çatdırıb.

Səfir M.Boçarnikov rəsmi Moskvanın münaqişə ilə bağlı mövqeyinin məlum və dəyişməz olduğunu, eləcə də hər hansı tanınmamış qurumun "nümayəndələri"nin Rusiya ərazisinə daxil olmasının bu ölkənin rəsmi mövqeyini əks etdirmədiyini vurğulayıb. O, həmçinin Azərbaycan tərəfinin etirazı barədə Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinə məruzə edəcəyini bildirib.

AZƏRBAYCAN ORDUSU

Ovqat

# Qəhrəmanlıq əbədi yaşamaqdır...

*Hərbi hissəyə çatanda havanın xoşluğu, mülayimliyi sanki ovqatımıza da köçmüşdü. Zabit Həşim Həşimov yolboyu bizə bələdçilik edirdi. Ötüb keçdiyimiz kəndlər və bir vaxtlar bu yerlərdə gedən qanlı döyüşlər barədə məlumat verirdi. Onun dediklərinə maraqla qulaq asır, gözlərimiz qarşısında döyüş səhnələrini canlandırırdıq. Sürücü isə avtomobili idarə edir, bizi ön xəttə həm tez, həm də təhlükəsiz çatdırmağa çalışırdı.*

Maraqlı söhbət yolumuzu qısaldır, səhərki gözəl ovqatla da ön xətdə çatırıq. Yurdumuzu qoruyan əsgərlərlə görüşüb söhbət etdikcə ovqatımıza yeni rənglər qatılırdı. Torpaqlarımızın keşiyində dayanan oğulların üz-gözündən söhbətimizin mövzusuna, ruhuna bənzəyən igidlik, mübarizlik və qəhrəmanlıq yağırdı. Bu cəsur hərbçilərlə söhbət etmək də, onları dinləmək də, düşüncələrinin yatımına uyğun söz demək də, fikir bildirmək də çox xoş idi. Söylədiklərindən hiss olunurdu ki, onların qəhrəmanlıq, vətənpərvərlik haqqında deməyə sözləri çoxdur. Yurdumuzun keşikçiləri təkcə danışmağı, fikir bildirməyi deyil, həm də deyilənləri dinləməyi də bacarırdılar. Bütün bunlar isə onların vətənpərvərliklə yanaşı, həm də yüksək mədəniyyətə sahib olduqlarından xəbər verirdi.

Əsgər Sadiq Bayramov dedi ki, ordu sıralarına qədər qəhrəmanlıq, vətənpərvərlik mövzusunda yazılmış çox bədii əsərlər oxuyub. “Vətənpərvər ruhda böyüməyimdə belə maraqlı əsərlərin rolu böyük olub. Əsərlərin qəhrəmanlarına oxşamağa çalışırıq. Yaşadığımız həyat, düşdüyümüz mühit daim bizi qəhrəmanlığa, igidliyə səsləyir. Uzun illərdir xalqımız Qarabağ müharibəsinin ağrı-acıları ilə yaşayır. Erməni işğalçıları Qarabağı zəbt edərək Azərbaycanın bu gözəl diyarına sahib çıxmaq istəyirlər. Xalqımız bu işğalla heç vaxt barışmayacaq. Deməli, biz erməni qəsbkarları ilə döyüşə daim hazır olmalıyıq. Nəyin bahasına olursa-olsun, erməni işğalçılarından şəhidlərimizin qisasını alacağıq. Düşmənə qarşı cəsarətlə, hünərlə vuruşacaq, adımızı qəhrəmanlıq tariximizin səhifələrinə böyük hərflərlə yazacağıq."

Əsgər Fariz Əsgərov söhbətimizə qoşularaq dedi:

- Qəhrəman olmaq, məncə əbədi yaşamaq deməkdir. Necə ki, tarixin dərinliklərində böyük hünər və igidlik göstərənlər bu gün yaşayırlar. Qəhrəmanlıq, igidlik həmişə insana baş ucalığı gətirib. Ona görə də içi biz əsgərlər qarışıq hamı zaman-zaman döyüşlərdə böyük hünər göstərməyə çalışıb. Xidmətə çağırıldığım az müddət ərzində hərbi hissəmizdə də görmüşəm ki, qəhrəmanlara, qəhrəmanlığa böyük diqqət və önəm verilir. Tez-tez bu mövzuda tədbirlər keçirilir. Qarabağ müharibəsində ermənilərə qarşı qəhrəmancasına vuruşan zabit və əsgərlərin adı, xatirəsi həmişə hörmətlə anılır, ehtiramla xatırlanır. Bütün bunları gördükcə hamımız qəhrəman olmağa can atırıq. Təbiidir ki, insan anadan qəhrəman doğulmur. Onu qəhrəmanlıq zirvəsini fəth etməyə düşdüyü mühit hazırlayır. Kiçik yaşlarımızdan Qarabağ müharibəsinin ağrılarını hiss edə-edə böyümüşük. Bu amillər isə bizim vətənpərvər ruhda böyüməyimizə müsbət təsir göstərib. Əgər ətrafımızda erməni kimi qəddar, amansız düşmən varsa, deməli, biz silahı əlimizdən yerə qoymamalı və hər an döyüşə hazır olmalıyıq. Mübarizlərin, Çingizlərin, Vəzirlərin, Samidlərin, Muradların, Rasimlərin və başqalarının qəhrəmanlıq yollarını şərəf və ləyaqətlə davam etdirməliyik. Qəhrəmanlıq adlı köklü-köhmərli ağacdan yeni-yeni pöhrələr boy verməlidir.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

Ön xətdə düşüncələr

# Bir ovuc torpaq da Vətəndi!..

Çox qədim dövrlərdən, xalq kimi formalaşmağa başladığı əyyamlardan bəri xalqımız bütün inanc mərhələlərində özünə aid olan, yaşamını təmin edən, qorumasıyla tanınan ərazinin - Torpağın hər qarışını müqəddəs bilib, müqəddəsliklə sərhədləndirdiyi ərazilərdə dövlət qurub. Minmin illərdi tarix xalqımızı bu inancla yaşayan xalq kimi tanıyır. Sirr deyil ki, bu inanc bu və ya digər şəkildə başqa xalqların da inanclarına hopub. Bu gözəl, bu qürurlu mətləbi ön xətdə, əsgərlərin əhatəsində yaşamaq nə qədər gözəlmiş!..

Bir az əvvəl döyüş növbətçiliyindən qayıdanda iki əsgərin bir anlığa ayaq saxladığını, bir ovuc torpaqla ünsiyyətini, bu bənzərsiz ünsiyyətin kəlmələşməyə necə döndüyünü görmüşdüm. Bu ilahi kəlmələşməyə müdaxilə etməyi də, kəlmələşmənin sonunu gözləməyi də bağışlanmaz suç saymışdım...

Səngərdə əsgərlərə bayaq gördüyüm bənzərsiz mükalimələşmədən, duyduqlarımdan-duymadıqlarımdan söz açıram. "Dədə Qorqud öyüdlərinə bələd olanlar ruhən Torpaq - Vətəndi, Vətən - Anadı, Ana - Millətdi, Millət - Dövlətdi" - deyimini də eşidir", - deyirəm və bir anlığına sözümə ara verirəm. Əsgərlər məlum düşüncələrlə, məlum duyğularla qarşı tərəfə baxırlar, sonra mövqedən gələn yola. Bayaq bir ovuc torpaqla anaoğul kimi kəlmələşən həmin iki əsgərin kim olduğunu bilmək marağıdı. "Hər biriniz belə bir duyumla xidmət edirsiniz. Hər biriniz bir ovuc torpağı da Vətən bilirsiniz. Ona görə döyüş əzminiz, qələbə ruhunuz bu səviyyədədi, ona görə xalq sizə güvənir", - deyirəm və diqqətimi bayaqdan bəri məhəl qoymadığım bir görüntü çəkir: həzin-həzin əsən meh ağacların saralmaqda olan yarpaqlarını titrədir. Bu titrəyişi mehin yarpaqlara mehirli teması, bu təması bayaq gördüklərimin rəmzi bilirəm...

"Əsgərlərimizin döyüş əzminə, qələbə ruhuna belə inamınız hər birimizə könül xoşluğudu. Əsgərlər bu inamı sizin timsalınızda jurnalistlərin, jurnalistlərin timsalında ictimaiyyətin inamı biləcək", - zabit Ramil Siraclı belə deyir və fikrini qibtəedilələcək bir qürurla tamamlayır: "Əsgərlərimizin torpağa, deməli, Vətənə sevgisinin belə dəyərləndirilməsindən məmnunuq, müəyyən mənada bunu xidmətimizə ictimaiyyətin verdiyi dəyər bilirik. Bir azdan bölüyün, sonra taborun bütün əsgərləri biləcək və bir daha əmin olacaqlar ki, sizin timsalınızda xalq onların xidmətini torpaqlarımızın işğaldan azad ediləcəyinə etibarlı zəmanət bilir".

Bu mükalimələşmə bugünkü səngər söhbətimizə vəsilə olur - əsgərin Torpaq sevgisi, Torpağa sevgisi...

Mayor Həşim Həşimov deyir ki, torpağın, Vətənin nə olduğunu hamı yeniyetməliyindən bilir. Hərbi xidmət əsgərlərin bildiklərini dərinləşdirir.

- Əminəm ki, şəxsi heyətin mənəvi-psixoloji hazırlığında belə dəqiq müşahidələr də əhəmiyyətli olur. Hərbi xidmət, həqiqətən də, əsgərin dünyagörüşünü dərinləşdirir. Əsgər bilir ki, torpaq Vətəndi, Vətən dövlət sərhədləriylə əhatələnmiş torpaqdı, torpağın mahiyyəti Vətən, Vətənin mahiyyəti torpaq olaraq dərk edilir, - deyirəm.

Mayor Həşim Həşimovun dedikləri könlümə yatır:

- Əsgər torpağımız deyəndə Vətənimizi, Vətənimiz deyəndə torpağımızı nəzərdə tutur.

Əsgərlərin baxışlarında məmnunluğu tamamlayan təbəssüm görünür. Biri deyir: "Torpaq - Vətəndi!", biri deyir: "Vətən - Torpaqdı!", biri deyir: "Eyni məzmunlu sözlərdi",...



Əsgərlərin coşqusunu döyüş əzminin yüksəlişinə yozuruq və mayor Həşim Həşimovun dediklərini bu yüksəlişin mahiyyəti kimi dinləyirik:

- Hərbi xidmətə başlayan əsgər nəyi qoruyacağını bilir, necə qoruyacağını gənc əsgər hazırlığından sonra hərbi hissədə öyrənir. Öyrənə-öyrənə torpağın, Vətənin bu mahiyyətini, hamısı daha əhatəli dərk edir.

Leytenant Ramil Siraclının gərəkli müdaxiləsi fikri daha da dolğunlaşdırır:

- Bir neçə ay əvvəl öyrənən əsgər bu gün öyrəndiklərini təkmilləşdirə-təkmilləşdirə hərbi hissədə xidmətə başlayan əsgərləri öyrədir, yəni, ordumuzda hərbi xidmət, müəyyən mənada, pedaqoji prosesdir və ordu quruculuğunda gərəklidir.

Söhbətin mahiyyətinə əsgərlər də biganə qalmır:

- Torpağın, Vətənin nə olduğunu, müqəddəsliyini yeniyetməliyimizdən bilirik, oxuya-oxuya, öyrənə-öyrənə dərk edirik. İllər keçdikcə torpaq haqqında, Vətən haqqında düşüncələrimiz dərinləşir. Bu gün hərbi xidmətə bu dərklə gəlirik, - əsgər Qəhrəman Məmmədov deyir.

- Döyüş yolunu davam etdirəcəyimiz qəhrəmanlarımızın da belə düşündüyünə zərrəcə şübhəm yoxdu, - əsgər Murad Bayramov deyir.

- Şəhidlərimizin, qəhrəmanlarımızın düşündüklərini gerçəkləşdirmək bizim həm hərbçi borcumuzdur, həm vətəndaşlıq, həm də mənəvi borcumuzdur. Bu borcu yerinə yetirənə kimi, tərxis olunsaq belə, yenə əsgərik, - əsgər Gündüz Yusifovun kəlmələrinin qətiyyət çaları aydınlığıyla sezilir.

- Torpaq haqqında, Vətən haqqında düşüncələrimi döyüş növbətçiliyimin ilk anları formalaşdırdı, - Gündüz əsgər yoldaşlarına baxır. Bu məzmunlu baxışlarda sorğu çaları da var: “Siz necə düşünürsünüz?”

Əsgər İzzət Məmmədov deyir ki, döyüş hazırlığı da, mənəvi-psixoloji hazırlıq da döyüş növbətçiliyi üçündür, döyüş növbətçiliyi isə Vətən üçündür.

- Yəni, hərbi xidmət Vətən üçündü, - əsgər xidmət yoldaşının sözünə qüvvət kimi belə deyir. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Zal Qəhrəmanovun dedikləri bizi də, əsgərləri də, zabitləri də duyğulandırır:

- Yəni, hamımız bilirik ki, ömür Vətən üçündür. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bir kəlamını heç birimiz unutmuruq, dövlətə, Vətənə xidməti biz də ömrümüzün mənası bilirik.

- Ona görə də döyüş hazırlığımızı müntəzəm olaraq artırırıq, - əsgər Qəhrəman Məmmədov bir daha söhbətə qoşulur, kəlmələri təkcə özünə inam kimi deyil, həm də ümumən ordunun şəxsi heyətinə inam kimi dinlənilir.

Səngərdə belə düşüncələrin mahiyyəti bizim üçün, əslində, ictimaiyyət üçün Torpaqdı, Vətəndi, əsgərdi, Qələbədi, əsgər üçün, əslində, ordu üçün Torpaqdı, Vətəndi, Qələbədi...

Ön xətdə vaxt yaman tez ötüşür. Baxışlarında, düşüncələrinin aydınlığında Böyük Qələbənin işartılarını gördüyün əsgərlərlə söhbətdən heç zaman doymursan. Sənə elə gəlir ki, söhbətin təxmini sonluğu elə başlanğıcdı, hələ çox mətləblər çözüləcək, deyiləcək, dinləniləcək, dərk ediləcək. Söhbətin sona yaxınlaşdığını duyunca yenə gələn görüşə ümidlənirsən. Gedirsən. Bir müddətdən sonra yenidən qayıdırsan, yenə söhbətlərin gərəkliyi, şirinliyi, səmimiliyi vaxtı üstələyir. Sənə elə gəlir ki, başlanğıcdan cəmi bir nəfəs dərimi qədər vaxt keçib...

Bayaq səngərdə bir fikir səslənmişdi: "Dədə Qorqud öyüdlərinə bələd olanlar ruhən "Torpaq - Vətəndi, Vətən - Anadı, Ana - Millətdi, Millət - Dövlətdi" deyimini də eşidir". Bu fikrin əsgərlərin düşüncələrinə bütün çalarlarıyla hopduğuna zərrəcə şübhəm yoxdu; söhbətləşəndə Torpaq haqqında, Vətən haqqında eşitdiklərimin fəlsəfi mahiyyətinə düşüncələrini düşüncələrimin ağ yolu bildiyim əsgərlərin dünyaduyumu deyirəm.

Həmişə olduğu kimi, indi də səngərdən yarım mənzil uzaqlaşmamış səngərdə əsgərlərlə söhbətlərin səmimiliyi könlümü səngərə çəkir; əsgərlərimizin döyüş əzmində, qələbə ruhunda belə qüdrət var.

Bayaqkı meh bir duyum qədərincə çılğınlaşıb.

Bir fikir düşüncələrimin haləsinə dönməkdədi: Bir ovuc torpaq da Vətəndi. Düşüncələrimdən süzülən bu fikir məni 1993-cü ilin avqustunu xatırlatdı:

Zəngilanda ezamiyyətdəydim.

Əsgərlərlə söhbətləşirdik. Dinləyənlərin də, fikir deyənlərin də sağ əli avtomatının qundağını sıxırdı. Hansı duyuma görəsə, sol tərəfə baxmışdım. Diqqətimi bir qədər aralıda torpağa dirsəklənmiş əsgərin uzaqlara ilişib qalmış baxışları çəkmişdi. Ovcunda torpaq görmüşdüm. Maraq məni söhbətdən aralamışdı. Əsgərdən soruşmuşdum:

- Nə düşünürsən, əsgər?

Əsgər qətiyyətlə "Torpağı" - demişdi. Mənə elə gəlmişdi ki, bayaqdan bəri torpaqla kəlmələşirmiş. Onda anlamışdım, bu gün bir daha anladım ki, bəşəri - insanı torpaq qədər duyğusallıqla, cani-dildən heç kim dinləyə bilməz, qınayanım olmasa deyərdim ki, heç bəşər də bəşəri belə dinləyə bilməz...

Onda da əsgərin həmsöhbəti bir ovuc torpağıydı - Vətəniydi, indi də bir ovuc torpaqdı - Vətəndi...

Çılğınlığı itirmiş meh ağacların budaqlarına sarılır...

Qürbətdə olanların Vətəndən yeganə umacağı bir ovuc torpaq olur. Son nəfəsinin sonunda göz torpağı kimi...

"Haradan başlanır Vətən?" sorğusuna müxtəlif cavablar verilib. Hamısını mahiyyət uyğunluğu eyniləşdirir. Söhbətin axarını əsgərlərin bu sualı "Vətən bir ovuc torpaqdan başlanır" kimi cavablandıracağına yəqinlik bilirəm...

Gün batmaqdadı...

Düşüncələrim "Torpaq - Vətəndi, Vətən - Anadı, Ana - Millətdi, Millət - Dövlətdi" - deyiminin, bir də "Bir ovuc torpaq da Vətəndi" fikrinin işığına sığınıb...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

*Heç kim unudulmur*

# Şəhid Əlövsət Vəliyevin xatirəsi anılıb



*Qubadlının Həmzəli kəndində dünyaya göz açan, Vətən uğrunda müharibədə qəhrəmancasına həlak olan Əlövsət Vəliyevin xatirəsi məzunu olduğu Qubadlı rayon Çaytumas kənd məktəb-liseyində yad edilib.*

*Qubadlı rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən anım tədbirində rayon rəhbərliyi, idarə, müəssisə və təşkilat rəhbərləri, şəhid ailələrinin üzvləri, şəhidin döyüş yoldaşları və müəllimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.*



AZƏRTAC xəbər verir ki, mərasim Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra Əlövsət Vəliyevin həyat yolundan bəhs edən film nümayiş etdirilib.

Çıxışında ulu öndər Heydər Əliyevin müharibə əlillərinə və şəhid ailələrinə böyük qayğı ilə yanaşdığını xatırladan Qubadlı rayon İcra Hakimiyyəti başçısının müavini, YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haqverdiyev, bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirildiyini, onların mənzil-məişət şəraitinin yaxşılaşdırıldığını vurğulayıb.

"Qubadlı rayonu Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə 238 şəhid verib", - deyən Allahverdi Haqverdiyev, Prezidentin Fərmanı ilə onlardan 11 nəfərinə Azərbaycanın Milli Qəhrəmanı adı verildiyini diqqətə çatdırıb. O, şəhidlərin xatirəsinin anılması, şəhid ailələrinə diqqət və qayğı göstərilməsi kimi məsələlərin rayon rəhbərliyinin daim gündəmində olduğunu bildirib.

Bildirilib ki, Əlövsət Vəliyev 1968-ci il dekabrın 15-də Qubadlı rayonunun Həmzəli kəndində dünyaya göz açıb. 1985-ci ildə orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Pedaqoji Universitetinə daxil olub. 1987-ci ildə hərbi xidmətə yola düşən Əlövsət Vətənə döndə ermənilər artıq torpaq iddiaları ilə çıxış edirdilər. 1992-ci ilin mayında ordu sıralarına daxil olan Əlövsət ilk gündən özünü təcrübəli tankçı kimi göstərir.



"1993-cü ilin avqustunda Qubadlı rayonu ağır günlərini yaşayırdı. Əlövsət Vəliyevin tankçıları gecə-gündüz ara vermədən döyüşlər aparır, düşmən hücumlarının qarşısını almağa çalışırdılar. Bu döyüşlər zamanı cəsur tankçı Əlövsət Vəliyev misilsiz qəhrəmanlıqlar göstərir. Düşmənin bir neçə texnikasını məhv edən bu qəhrəman mərmi bitdikdən sonra öz tankını tərk etmir. Tankı erməni quldurlarının üzərinə yönəldir, son məqamda o, öz tankını düşmən tankına çırparaq hər iki texnikanı hərəkətsiz hala salaraq qəhrəmanlıqla həlak olur. Suraxanı rayon 70 saylı uşaq bağçası şəhidin adını daşıyır. Onun xatirəsi "Əfsanəvi Tankçı" adlı kitabda əbədiləşib", - deyə A.Haqverdiyev qeyd edib.

Natiq bildirib ki, yaxın gələcəkdə Prezidentimizin uğurlu siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olunacaq və üçrəngli bayrağımız işğal olunmuş torpağımızda dalğalanacaq, şəhidlərin ruhu şad olacaq.

Əlövsət Vəliyevin döyüş yoldaşları şəhidin 25 il ərzində keçdiyi şərəfli həyat yolundan danışaraq, xatirələrini bölüşüblər.

Anım tədbirinin sonunda məktəb şagirdlərinin ifasında qəhrəmanlıq və vətənpərvərlik mövzusunda ədəbi-bədii kompozisiya nümayiş olunub.

*Hərbi texnikalar, silahlar*

# Yaylım atəşli LAR-160 reaktiv sistemi

Yaylım atəşli reaktiv sistemlərini İsrailin "Israel Military Industries LTD" şirkəti hazırlayır. 70-ci illərin sonunda bu şirkətin hazırladığı LAR-160 yaylım atəşli reaktiv sistemi 1983-cü ildə İsrail ordusunun silahlanmasına daxil edilib. Şirkət bu sistemin yedəklənən variantını da hazırlayıb. Onun buraxıcı qurğusu 18 ədəd istiqamətləndirici paketdən ibarətdir və onlar biroxlu nişangaha bərkidilib ki, bunlar da beş ton çəkisi olan avtomobilə yedəklənir və burada da döyüş hesabı, əlavə idarə olunmayan reaktiv mərmili paketlər yerləşdirilib. Yaylım atəşli LAR-160 reaktiv sisteminin heyəti 6 nəfərdən ibarətdir. Onun tam çəkisi 19200 kiloqram, uzunluğu 4,88 metr, eni 2,51 metr, hündürlüyü təqribən 2,5 metrdir. Dərinliyi 0.6 metr olan maneələri dəf etməyə qadirdir. Güc qurğusu 250 at gücündə Sofam Model 8Gxb benzinlə işləyən mühərrikdən ibarətdir. Onun maksimal atəş uzaqlığı "Mark-2" reaktiv mərmidən istifadə etməklə 34000 metrdir. Döyüş başlığının çəkisi 46 kiloqrama qədərdir.



Ən geniş yayılanı 104 ədəd qumbaradan ibarət olan xüsusi fuqas və kaset tipli adi döyüş başlıqlarıdır.



**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Rəcəb Tayyib Ərdoğan: Türkiyəyə qarşı bütün ədalətsizliklərin əsasında ikili standartlar dayanır



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Macarıstana rəsmi səfərə gedib.

Türkiyənin dövlət başçısı səfərdən əvvəl Ankaranın "Esenboğa" hava limanında mətbuat konfransı keçirib.

Səfərin məqsədi barədə geniş məlumat verən Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin terrorla mübarizədə geri addım atmayacağını bildirib. Suriya ərazisində keçirilən "Sülh çeşməsi" antiterror əməliyyatında Türkiyəni dəstəkləyən ölkələrə minnətdarlığını ifadə edən Prezident, eyni zamanda, bu haqq işində ədalətsizlik edənlərə sərt münasibət bildirib. Diqqətə çatdırılıb ki, Türkiyəyə qarşı bütün ədalətsizliklərin əsasında dünyadakı ikili standartlar dayanır.

Prezident Rəcəb Tayyib Ərdoğan, həmçinin jurnalistləri maraqlandıran digər suallari da cavablandırıb.

### Hindistan S-400 zenit-raket kompleksləri üçün 850 milyon dollar avans ödəyib



Hindistan S-400 "Triumf" zenit-raket kompleksləri üçün 850 milyon dollarlıq ilk avansı ödəyib və Rusiyadan onların çatdırılması qrafikini sürətləndirməsini istəyib.

2018-ci ilin oktyabrında imzalanan S-400 komplekslərinin beş polk komplektinin çatdırılması üzrə sazişin ümumi dəyəri 5,43 milyard dollardır. Çatdırılma prosesinin sürətləndirilməsi Rusiya-Hindistan hökumətlərarası komissiyasının keçirilən iclasında müzakirə olunmalıdır.

Rusiya silahlarının alınması ilə bağlı iki dövlət arasında ödəniş mexanizmi qurulduqdan sonra Dehli ABŞ sanksiyalarından yayınmaq üçün çatdırılma qrafikini sürətləndirmək qərarına gəlib.

Hindistan Belarus, Çin və Türkiyədən sonra "Triumf" zenit-raket kompleksləri alan dördüncü ölkə olacaq.

### Finlandiya öz Hərbi Hava Qüvvələrinin ehtiyacları üçün yeni qırıcı təyyarələr almaq niyyətindədir



Finlandiya öz Hərbi Hava Qüvvələrinin (HHQ) ehtiyacları üçün yeni qırıcı təyyarələr almaq məqsədilə 10 milyard avro ayırmaq niyyətindədir.

Finlandiya Müdafiə Qüvvələri 10 milyard avroya qədər dəyəri olan kontrakt üzrə təchizatı təmin etmək iddiasında olan qırıcı təyyarələr istehsalçıları arasında tenderin şərtlərinə yenidən baxılması xahişi ilə hökumətə müraciət edib. Yeni təyyarələr Finlandiya HHQ-nin artıq köhnəlmiş olan FA-18 qırıcı təyyarələr parkını yeniləşdirmək məqsədilə alınacaq.

### Tacikistanda sərhəd zastavasına hücum edənlər İŞİD silahlıları olub



Tacikistan-Özbəkistan sərhədində zastavaya hücum edənlər İŞİD terror qruplaşmasının yaraqlıları olub.

Bu barədə Tacikistanın Milli Təhlükəsizlik Komitəsi məlumat yayıb. Qurumun məlumatına əsasən, silahlılar noyabrın 3-də Əfqanıstanın şimal-şərqində yerləşən Qunduz əyalətinin Kalai-Zol qəzasından Özbəkistana daxil olublar.

Bir qədər əvvəl Tacikistan Sərhəd Qoşunlarının mətbuat xidməti 20 nəfərdən ibarət silahlı qrupun Özbəkistanla sərhəddə yerləşən zastavaya hücum etdiyini bildirib. Güc strukturlarının keçirdiyi əməliyyat nəticəsində hücum edən silahlılardan 15-i öldürülüb, beşi isə saxlanılıb. Əməliyyat zamanı, həmçinin sərhəd qoşunlarının bir əsgəri və Daxili İşlər Nazirliyinin bir əməkdaşı həlak olub.

**AZƏRTAC-ın materialları əsasında**

*Cəfər Cabbarlı*

## Azərbaycan bayrağı

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadımı üzərimə kölgə salan?
Nə imiş bu, aman Allah?! Od yurdunun yarpağı!
Göy yarpaqlı, al çiçəkli yaşıl otlar topasımı?
Xayır, xayır? Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları pək seviyor,
Yulduzlardan hilaldan da yüksəklərdə fırlanıyor.

Kölgəsində ay əyilib bir gözəli qucmada.
Qucaşaraq sevdiyilə yüksəklərə uçmada,
Şu görünüş bir ananın şəfqətinə oxşayor.
Düşündükcə zövqlərimi, vicdanımı oxşayor.
Bu ay, yıldız, boyaların qurultayı nə demək?
Bizcə böylə söyləmək!

Bu göy boya Göy Moğoldan qalmış bir Türk nişanı,
Bir Türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!

Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.
Səkkiz uclu şu yulduz da səkkiz hərli OD YURDU
Əsarətin gecəsindən flirsət bulmuş quş kibi,
Səhərlərə uçmuşdur
Şu hilal da Türk bilgisi, düzgün sevgi nişani,
Yurdumuzu qucmuşdur!

Allah, əməllərim edib şu bayrağı intiqal,
Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!
Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun bir göy bayraq Turan üstə açılsın.

*Əhməd Cavad*

## Bayrağım

Türküstan yelləri öpüb alnını
Şöyləyir dərdini sana, bayrağım!
Üçrəngin əksini Quzğun dənizdən
Ərməğan yollasın yara, bayrağım!

Gedərkən Turana çıxdın qarşıma,
Kölgən dövlət quşu, qondu başıma!
İzn ver gözümdə coşan yaşıma -
Dinlətsin dərdini aha, bayrağım!

Qayı Xan soyundan aldığın rəngi,
Qucamış Elxanla, müsəlman bəgi.
Elxanın övladı, dinin dirəgi,
Gətirdin könlümə səfa, bayrağım!

Köksümdə tufanlar gəldim irəli,
Öpüm kölgən düşən mübarək yeri!
Allahın yıldızı, o gözəl pəri,
Sığınmış qoynunda Aya, bayrağım!

*Bəxtiyar Vahabzadə*

## Bayraq

Torpağım üstünə kölgələr salan
Mənim varlığımın cilası bayraq.
Zəfərdən doğulmuş
Göytürkdən qalan
Qurdbaşlı bayrağın balası bayraq.

Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı Vətən görmüşəm.
Zəfər güllərini dövri-qədimdən
Bayraq işığında bitən görmüşəm.

Bayraq mənliyimdir, bayraq kimliyim,
Bayraq - öz yurduma öz hakimliyim.
Harda əcdadımın ayaq izi var,
Bu zəfər bayrağım orda dikəlsin.
Keçdiyi yerlərdə dağlar, yamaclar
Onun hüzuruna salama gəlsin.

Tarixdən qədimdir, zamandan qoca
Mənim bayrağıma sancılan hilal.
Aləmə nur saçdı tarix boyunca
Məbədlər başına tac olan hilal.

Daim ucalasan! Savaş günündə
Əsgər silahıyla səni tən görüm.
Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm.

*Könlüm şeir istəyir*

# Bayrağım - varlığım, bəxtiyarlığım



*Dövlət bayrağı hər bir vətəndaşın qürurudu, xalqın varlığını, vətəndaşın bəxtiyarlığını ifadə edir. Bu ruhda formalaşan gənclər hərbi xidmətə bu dünyagörüşlə başlayır. Döyüş növbətçiliyini Hərbi anda, dövlətçilik rəmzi olan bayrağa sədaqətlə aparır. Azərbaycan əsgəri Ali Baş Komandanın əmriylə döyüşəcək. Dövlət bayrağımız işğaldan azad edilmiş torpaqlarımızda da dalğalanacaq! Azərbaycan poeziyası bayrağımızı həmişə böyük ilhamla vəsf edib, indi də vəsf edir.*

"Azərbaycan Ordusu"

*Ramiz Qusarçaylı*

## Azərbaycan bayrağı

Şənini vəsf etməyə yetər, qüdrətim yetər,
Ulduzunu, ayını göydə mələklər öpər,
Hər rəngində "ya qazi, ya şəhid" bir mən bitər,
Sən ey İstiqlalımın əbədiyyət sancağı, -
Azərbaycan bayrağı!

Yağının min hiyləsi küydən, kələkdən keçər,
Sən sancılan ucalıq min-min ürəkdən keçər,
Dağlar yerindən oynar, daşlar ələkdən keçər,
Göylərin nur yağmuru, yerlərin göy qurşağı, -
Azərbaycan bayrağı!

Sən Arazın, Samurun umuduna bələndin,
Çəni ağlar Göyçənin buluduna bələndin,
Dərbəndin dərd hıçqıran sükutuna bələndin
O tayımda Savalan, bu tayımda Şah dağı,
Azərbaycan bayrağı!

Cəngidə cövlan yerim, cövlanda can yerimsən,
Barışda gül çələngim, savaşda qan yerimsən,
Sən mənim and yerimsən, mənim iman yerimsən,
Dalğalıləngərlərin yelpiklənən yarpağı, -
Azərbaycan bayrağı!

Sənsən Azadlıq eşqim, sənsən Hürr, - deyəcəyəm,
Ən son nəfəsimdə də sənə şeir deyəcəyəm,
Şuşada sən qonduğun daşa pir deyəcəyəm,
Çəkəcəyəm gözümə kölgən düşən torpağı
Azərbaycan bayrağı!
Azərbaycan bayrağı!

*Dayandur Sevgin*

## Azərbaycan bayrağı

Millətimin fəxridi, haqqa gedən yoludu,
Koroğlumun qılıncı, Babəkimin qoludu,
Müstəqillik günəşi, Azadlıq simvoludu,
Seyr elə, igid əsgər, dalğalanan bayrağı.
Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!

"Balam" deyib ağlama, o millətin balası,
Vətən yolunda getdi, qurdu qeyrət qalası,
Düzəlt, qəddini düzəlt, şax dur, şəhid anası,
Ucalarda saxlayar, tökülən qan bayrağı.
Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!

Yaşılı İslamçılıq, göyü Turan şanıdı,
Vətən oğlu, qırmızı şəhidlərin qanıdı,
Ümummilli liderin bizə ərməğanıdı,
Oğullardı ucaldan, ata sancan bayrağı.
Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!

Tanrıdan səda gələ, yazdığın haqqa yaza,
Mələklər səcdə edə, bu aya, bu ulduza,
İgid oğlanlarımız, sevdiyi gözəl qıza,
Atsın zərif çiyninə, versin nişan bayrağı.
Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!

Azadlığın yanğısı alışar, sönməz dedi,
Millətim haqq yolundan, heç zaman dönməz dedi,
Bir dəfə qalxan bayraq, bir daha enməz dedi,
Endirmərik bir daha işıq saçan bayrağı.
Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!

Könlümdə göyərəni Qarabağda bitirsin,
Dalğalansın, arzumu Savalana yetirsin,
Ucaldıqca ucaldaq, dosta sevinc gətirsin,
Düşmənlərin köksünü oda yaxan bayrağı.
Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!

Hayqırır azad ölkəm tiranlara, şahlara,
Son qoyulsun deyirik zülmlərə, ahlara,
Qaranlıq gecələrdən, işıqlı sabahlara,
Oyatsın səhər mehi, oxşasın dan bayrağı.
Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!

Gözəldi qarlı qışı, həmdə yazı Vətənin,
Qəriblikdə bilinər dadı-duzu Vətənin,
Uğrunda şəhid olaq, yada qazi Vətənin,
Yolunda verək qurban, qorusun can bayrağı.
Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!

*Zaur İlhamoğlu*

## Azərbaycan bayrağı

"Qan qoxulu o illərin hər dəhşətli anıyla,
Neçə-neçə məzlumların sipər olan canıyla,
Saya gəlməz şəhidlərin töküldüyü qanıyla,
Qazandığım hürriyyətim - Azərbaycan bayrağı!
Mübarizəm, şücaətim - Azərbaycan bayrağı!

Gəzib dolan bu dünyanı bayraq macərasında
Varmı belə gözəl bayraq bayraqlar arasında?
Millətimin bir millət tək millətlər sırasında
Varlığıma zəmanətim - Azərbaycan bayrağı!
Mən olmağım, şəxsiyyətim - Azərbaycan bayrağı!

Səma rəngim - Türk olmağım, Türklüyümdən var nişan,
Qırmızı rəng - mən azadam, qul olmaram heç zaman.
Yaşıl rəngim - dinim İslam, Allahım - tək Yaradan.
Hər rəngim bir əlamətim - Azərbaycan bayrağı!
Adım-sanım, şan-şöhrətim - Azərbaycan bayrağı!

Sənə olan bu sevgimin ölçüsü yox bəşərdə,
Səndən ötrü düşsəm, xoşdur min bəlaya, min dərdə.
Təki dalğalansın mənim bayrağım zirvələrdə,
Sarsılmayan məhəbbətim - Azərbaycan bayrağı!
Öz eşqimə sədaqətim - Azərbaycan bayrağı!

Mən bu yurdun övladıyam, bircə arzum var mənim:
Şəhid olum bayraq üstə, bayraq olsun kəfənim!
Nə qədər ki, bayrağım var, var olacaq Vətənim.
Dağ vüqarım, şax qamətim - Azərbaycan bayrağı!
Qürur yerim, fəxarətim - Azərbaycan bayrağı!

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 670
Nüsxə 3950